AYLIQ BÜLLETEN
Aprel
2024-cü il

Azərbaycan Mikromaliyyə Assosiasiyası

AMFA

Azerbaijan Micro-finance Association

187-ci buraxılış

Bu nömrədə:

1. Azərbaycan İnsurtech Zirvəsi
2. “Birləşmiş Millətlər Təşkilatının ESCAP - Azərbaycan BXİ Strategiyası”
3. "Sahibkarlar günü" və "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda konfrans
4. Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun iclası
5. Permakultura dizayn konsepsiyası fermerlərdə maraq doğurur
6. “Gələcək üçün Assosiasiyalar” layihəsinin benefisiarlarla tədbirləri
7. Peşəkar İnkişaf

AMFA-nın Missiyası

Mikromaliyyə qurumlarının potensialını gücləndirmək və mikro maliyyə icmasının və müştərilərinin maraqlarını təmin etmək üçün effektiv kollektiv fəaliyyətinin təşviq edilməsidir.

Aprel 2024
Bakı, Azərbaycan

Azərbaycan İnsurtech Zirvəsi

Mərkəzi Bankın dəstəyi, Azərbaycan Sığortaçılar Assosiasiyası, "Türkiye InsurTech Hub" və "New Generation Management Company"nin birgə təşkilatçılığı ilə aprelin 16-da Bakı Konqres Mərkəzində "Azərbaycan İnsurtech Zirvəsi" tədbiri keçirilib. AMFA Müşahidə Şurasının sədri Cəlal Əliyev, AMFA Müşahidə Şurasının sədr müavini Süleyman Kələşov, AMFA Müşahidə Şurasının üzvü Lütvəli Zeynallı və AMFA üzvlərlə əlaqə üzrə məsul şəxs Elcan Həsənov tədbirdə iştirak ediblər.

Hər iki ölkənin maliyyə bazarını təmsil edən üç yüzə yaxın nümayəndənin iştirakı ilə keçirilən tədbirdə ölkənin sığorta bazarının texnoloji transformasiya gündəmində duran əsas məsələlər müzakirə olunub. Həmçinin tədbir çərçivəsində təşkil olunan panel müzakirələrində Türkiyə sığorta şirkətlərinin rəqəmsallaşma sahəsindəki təcrübələri ətrafında fikir mübadiləsi aparılıb. Tədbirdə açılış nitqi ilə çıxış edən Mərkəzi Bankın sədri Taleh Kazımov "Azərbaycan İnsurtech Zirvəsi"nin Türkiyə sığortaçılarının təcrübələrinin öyrənilməsi, eləcə də onlarla əməkdaşlığın formalaşdırılması və gücləndirilməsi istiqamətindəki əhəmiyyətini vurğulayıb. Sədr həmçinin Mərkəzi Bankın ölkənin sığorta bazarının davamlı inkişafını təmin etməyə və sektorun rəqəmsal transformasiyasını dəstəkləməyə xidmət edəcək prioritetlərindən danışıb. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxışlarında texnoloji transformasiya sahəsində ölkədə həyata keçirilən təşəbbüslərdən bəhs ediblər. Daha sonra tədbir panel müzakirələr formatında davam etdirilib.

"Sahibkarlar günü" və "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda konfrans

25 aprel 2024-cü il tarixində, AMFA icraçı direktoru Jalə Hacıyeva Gülüstan sarayında "Sahibkarlar günü" və Azərbaycan Sahibkarlar Konfederasiyasının yaranmasının 25 illiyi ilə bağlı aprelin 25-də "Gülüstan" sarayında İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda konfransda iştirak etmişdir. Əvvəlcə tədbir iştirakçıları Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyublar. Konfrans iştirakçıları, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad edib, "Əbədi Məşəl" kompleksinə əklil qoyublar.

İqtisadiyyat naziri Mikayıl Cabbarov konfrans iştirakçılarına videomüraciət ünvanlayıb, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, "Hünər Qrup" şirkətinin təsisçisi və baş direktoru Ehtiram Quliyev çıxış ediblər. Çıxışlarda ölkəmizdə bazar münasibətləri prinsipləri əsasında iqtisadiyyatın, o cümlədən, özəl sektorun formalaşması və inkişafında Ulu Öndərin rolu, bu siyasətin Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi, özəl sektorun inkişafı, sahibkarların sosial rifah və məşğulluqda rolu, kiçik və orta biznesin inkişafının prioritetliyi, dövlət-özəl dialoqunun əhəmiyyəti barədə məlumat verilib. Tədbirdə sahibkarlığın inkişafına və ASK-nın 25 illiyinə dair filmlər nümayiş olunub, dövlət-özəl dialoqunun inkişafına verdiyi töhfəyə görə bir qrup sahibkar mükafatlandırılıb. Tədbirdə Dövlət—özəl dialoqunda aktiv iştirakına görə AMFA mükafatlandırılıb. Konfransın sonunda Prezident İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub.

Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun iclası

AMFA Müşahidə Şurasının sədr müavini Süleyman Kələşov və AMFA icraçı direktoru Jalə Hacıyeva 30 aprel 2024-cü il tarixində biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun iclasında iştirak etmişdirlər.

İclasda İşçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı çərçivəsində 1-ci rüb ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair müzakirələr aparılmışdır.

Həmçinin, "Business Ready" hesabatının “Maliyyə xidmətləri” indikatoru üzrə tapşırıqların icra vəziyyəti və “Maliyyə xidmətləri” indikatorunun sualları üzrə dövlət və özəl sektorun cavabları arasındakı fərqli məqamlar nəzərdən keçirilmişdir. İclasda həmçinin sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə kreditlərin əldə edilməsində üzləşdiyi çətinliklər ətrafında fikir mübadiləsi aparılmışdır.



Maliyyə institutları tərəfindən müştərilərin maarifləndirilməsi

Sahibkarlıq subyektlərinin Business Ready hesabatının Maliyyə xidmətləri indikatoru ilə bağlı məlumatlılığının artırılması məqsədilə iki mərhələli tədbirlər icra edilmişdir:

1. Maliyyə institutları üçün maarifləndirmə tədbirləri həyata keçirilmişdir.
2. Maliyyə institutları tərəfindən müştərilərin (sahibkarlıq subyektlərinin maarifləndirilməsi üzrə tədbirlər həyata keçirilmişdir. Maarifləndirmə aşağıdakı metodlarla aparılmışdır.

- *Üz-üzə və onlayn formatda görüşlər, korporativ mailların göndərilməsi, sosial kanallar (bank tətbiqləri, whatsapp, telegram kanalları və s.), video çarxların çəkilməsi, broşurların çap edilməsi və s.*

Təşkilat	Məlumatlandırılmış sahibkarlıq subyektlərinin sayı	
	Fevral	Mart
Bank	17,348	23,525
BOKT	73	166
Sığorta şirkətləri	1,138	1,295
İnvestisiya şirkətləri	48	25
Azərbaycan Sahibkarlar Konfederasiyası	985	-
CƏMİ	19,592	25,011

“Permakultura dizayn konsepsiyası fermerlərdə maraq doğurur”

19, 23 və 24 aprel tarixlərində “Gənc Aqrosahibkarlar” layihəsi çərçivəsində Masallı, Astara və Lerik rayonlarında “Permakultura konsepsiyası” üzrə 68 fermerə təlim keçirilmişdir. Təlimlərin əsas məqsədi fermerləri dayanıqlı kənd təsərrüfatının ekosistemlərinin inkişafı ilə bağlı maarifləndirmək, yeni nəsil fermerləri permakultura konsepsiyası ilə tanış etmək.

Təlim zamanı fermerlər ənənəvi kənd təsərrüfatının faydaları və zərərləri, eləcə də innovative üsullardan biri olan permakultura yanaşması haqqında müzakirələr aparmışlar. Təlim iştirakçıları permakultura konsepsiyasına böyük maraq nümayiş etdirmişdirlər.

Gənc Aqrosahibkarlar” layihəsi çərçivəsində 16, 17, 18 aprel tarixlərində layihə regionlarında “İqlim Dəyişikliyi” mövzusunda da təlimlər keçirilmişdir.

Təlimdə iqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirləri, fermerlərin yaşayış vasitələrinə təsiri, istehsalın yaxşılaşdırılması haqqında müzakirələr aparılıb.

“Gələcək üçün Assosiasiyalar” layihəsinin benefisiarlarla tədbirləri

“Gələcək üçün Assosiasiyalar” (AFA) layihəsinin 5 aprel tarixində Hilton Baku Hoteldə “Əməliyyatların idarə edilməsi və insan resursları” mövzusunda seminarı baş tutdu. Seminar zamanı Namiq Naqıyev strateji və biznes planlama, monitorinq və nəzarət, işçi heyətinin idarə edilməsi, peşəkar inkişaf metodologiyası və təşkilati mədəniyyət mövzularında çıxış etdi. Görüşündə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi daxil olmaqla beş benefisiar assosiasiya iştirak etmişlər. Ümumilikdə 17 iştirakçı olub.

17 aprel tarixində AFA layihəsi çərçivəsində “JW Marriott Absheron Baku” hoteldə “Üzvlük strategiyaları və xidmətlərin inkişafı” mövzusunda seminar baş tutdu. AFA fakültə üzvü Nərmin Gəniyeva üzvlük strategiyaları, üzvlük növləri və üzvlük xidmətləri barədə layihə benefisiarlarına məlumat verdi, öz təcrübəsini bölüşdü. Seminar zamanı Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi daxil olmaqla yeddi benefisiar assosiasiya və iki potensial benefisiar assosiasiya iştirak etmişlər. Ümumilikdə 24 iştirakçı olub.

23 aprel 2024-cü il tarixində AFA layihə benefisiarı Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının dəvəti ilə həmkar görüşümüz baş tutmuşdur. Görüş zamanı İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu və Azərbaycanın ilk inklüziv muzeyi olan Azərbaycan Milli Xalça Muzeyinə ekskursiya təşkil olundu. Ümumilikdə, beş benefisiar assosiasiyaların, həmkar xarici təşkilatların, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsinin və fakültə üzvlərinin iştirakı ilə 29 nəfər həmkar görüşündən faydalanmışdır.

Peşəkar İnkişaf

AMFA üzvləri və tərəfdaşları Frankfurt School 2023 -cü il üzrə e-tədris proqramlarına endirim edir!!!

Frankfurt School of Finance & Management

German Excellence. Global Relevance.

Məmnunluqla bildirmək istərdik ki, AMFA-nın Frankfurt School ilə tərəfdaşlıq müqaviləsi yenilənmişdir! Bu tərəfdaşlıq AMFA üzvlərinə beynəlxalq təhsil imkanlarını araşdırarkən daha çox üstünlük əldə etməyə imkan verəcək!

Bütün proqramlar üçün https://www.fsd/e-Campus-da AMFA üzvləri üçün 10% and 5 % endirim!!!

Kodunuzu əldə etmək üçün member_services@amfa.az ilə əlaqə saxlayın



Daha ətraflı məlumat üçün keçiddən istifadə edin: Frankfurt-school

Ekspert e-tədris kursları cədvəli üçün növbəti səhifəyə baxın:

Frankfurt Biznes Məktəbində 2023

Maliyyə Xidmətləri	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Microfinance (New version)	3	EN, FR	900 EUR	700 EUR
Islamic Microfinance	3	EN	900 EUR	700 EUR
Agricultural Finance	3	EN, FR, TR	900 EUR	700 EUR
SME Finance	6	EN, FR	1,550 EUR	1,350 EUR
Digital Finance	6	EN, FR	1,550 EUR	1,350 EUR
Financial Inclusion Policy	6	EN	1,550 EUR	1,350 EUR
Microinsurance	6	EN	1,550 EUR	1,350 EUR
ESG & Impact Investing	6	EN	1,550 EUR	1,350 EUR

Yaşıl Maliyyə*	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Climate & Renewable Energy Finance	6	EN	1,700 EUR	1,485 EUR
Climate Adaptation Finance	6	EN	1,700 EUR	1,485 EUR
Sustainable Finance	6	EN, DE	1,700 EUR	1,485 EUR
Agricultural Finance (New version)	3	EN, FR, TR	900 EUR	700 EUR
Financing NDCs	3	EN, FR	900 EUR	700 EUR
ESG & Impact Investing	6	EN	1,700 EUR	1,485 EUR

Risklərin təhlili	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Risk Management	6	EN, ES, FR	1,550 EUR	1,350 EUR
Financial & Managerial Accounting	6	EN	1,550 EUR	1,350 EUR
NPL Management	6	EN	1,550 EUR	1,350 EUR
Risk Management, Corporate Governance & Compliance	6	EN	1,550 EUR	1,350 EUR

Digər onlayn proqramlar	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Master of Leadership in Sustainable Finance	60	EN	17,500 EUR	N/A
Diploma in Financial Inclusion	20	EN	7,890 EUR	6,706.5 EUR
Diploma in Green Finance	20	EN	7,890 EUR	6,706.5 EUR

Azərbaycan Mikromaliyyə Assosiasiyası

Azerbaijan Micro-finance Association

www.amfa.az

@AMFA.Azerbaijan

@AMFAAzerbaijan

@AMFA

@amfaaz

+994 12 437 16 45

AZ1065, Azərbaycan, Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44, Kaspian Plaza 1, 5-ci mərtəbə